# Ombudsman Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Ermənistan tərəfindən atəşə tutulmasının ildönümü ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva Ermənistan silahlı qüvvələri tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin kaset tipli raketlərlə atəşə tutulmasının ildönümü ilə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bəyanatda deyilir: "Dünya ictimaiyyətinə dəfələrlə bəyan edildiyi kimi, Ermənistan silahlı qüvvələri 2020-ci il sentyabrın 27-dən başlayaraq beynəlxalq səviyyədə qadağan edilmiş silahlardan, o cümlədən əməliyyat-taktiki ballistik raket kompleksindən istifadə etməklə Azərbaycanın cəbhə bölgəsindən uzaq məsafədə yerləşən yaşayış məntəqələrini qəsdən intensiv şəkildə atəşə tutmaqla kifayətlənməyib, region üçün ciddi ekoloji fəsadlara səbəb ola biləcək, eyni zamanda region dövlətləri və ümumilikdə Avropanın enerji təhlükəsizliyinə yönəlik qəsd əməlləri törətməklə müharibə cinayətlərini davam etdirib.

Ermənistan silahlı qüvvələri ötən ilin bu günü - 2020-ci il oktyabrın 6-da gecə saat 23 radələrindən başlayaraq hərbi əməliyyatların aparıldığı bölgədən uzaqda yerləşən Yevlax rayonunun ərazisindəki Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərini də kaset tipli raketlərlə atəşə tutub.

Azərbaycan, Gürcüstan, Türkiyə, bütövlükdə bölgə, eləcə də Avropa və dünya dövlətləri üçün həm iqtisadi-siyasi baxımdan, həm də enerji təhlükəsizliyi cəhətdən çox böyük strateji əhəmiyyətə malik olan həmin boru kəmərinin 10 metrliyinə düşmüş 300-dən çox kaset tipli bombanın qəlpələrinin ətrafa yayılması mülki əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükə yaradıb.

Bununla əlaqədar Ermənistan tərəfindən törədilən həmin müharibə cinayətinə sərt şəkildə reaksiya verilməsi, region və Avropanın enerji təhlükəsizliyinə təsir edəcək, o cümlədən ciddi ekoloji fəsadların baş verməsinə səbəb ola biləcək bu kimi cinayətkar əməllərin dayandırılması üzrə təcili tədbirlərin görülməsi məqsədilə tərəfimdən dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara müraciətlər ünvanlanıb.

Lakin təəssüflər olsun ki, Ermənistan tərəfindən törədilən digər çoxsaylı müharibə cinayətləri kimi bu cinayət faktı ilə bağlı da beynəlxalq səviyyədə heç bir təsirli tədbirin görülməsini müşahidə etmədik. Halbuki beynəlxalq əhəmiyyətə malik neft boru kəmərinin qadağan olunmuş silahlarla atəşə tutulması ilə törədilmiş həmin müharibə cinayəti yalnız Azərbaycana qarşı deyil, bütünlükdə region və Avropa dövlətlərinə yönəlməklə, qlobal enerji təhlükəsizliyinə zərbə vurmaq və region üçün ciddi ekoloji fəsadlar törətmək məqsədi daşıyıb".

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin kaset bombalarla atəşə tutulmasının birinci ildönümü ilə əlaqədar bir daha dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət edərək, beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozmaqla mülki əhalinin qətlə yetirilməsi ilə nəticələnən çoxsaylı müharibə cinayətləri törətmiş Ermənistana qarşı müvafiq sanksiyaların tətbiq edilməsi, bu cinayətlərin törədilməsində bilavasitə iştirak etmiş həmin dövlətin siyasi-hərbi rəhbərliyində təmsil olunan şəxslərin məsuliyyətə cəlb edilərək cəzalandırılması istiqamətində qətiyyətli, ədalətli addımlar atmağa çağırıram".

Bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

Azərbaycan.- 2021.- 7 oktyabr.- S.5.